

# Səhnə sehrinin sirdaşı

## Və yaxud Amaliya Pənahovanın zəngin, əlvan, bənzərsiz yaradıcılığı haqqında etüdvari söyləmələr...

> “Vaxtilə milli səhnəmizin ulduzlarından olan Amaliya Pənahova haqqında yazdığım kitabın adını “Səhnə sehrinin sirdaşı” qoymuşdum. Sənətkarın ad günü münasibətilə qələmə aldığım bu yazıya da məhz həmin sərlövhəni yaraşdırdım

*Soruşa bilərsiniz ki, nə üçün?*
*Çünki, mənim fikrimcə, səhnənin bütün sirlərinə aşina olan Amaliya xanımın portreti üçün bu üç söz daha tutarlıdır...*
*Çünki, mənim fikrimcə, onlarla gənc qız məhz Amaliya Pənahovanın 1964-cü ildə Nargilə rolu ilə ulduz kimi parlamasından sonra gənc aktrisanın sənət sehrinə sirdaş olub səhnəyə bağlandı..*
*Çünki, mənim fikrimcə, səhnə sehrinin sirdaşı olmayan bir kimsə Amaliya Pənahova sənətinin vüsətini, möhtəşəmliyini, lətafətini, hüsnünü, təravətini çətin dərk edər... dilimizin sehrli məqamları çoxdur və görünür, təsadüfi deyil ki, salam, sevgi, sədaqət, səmimiyyət, sərvət, söhbət, su, sovqat, sənət... kəlmələrinin, eləcə də “söz” sözünün özü “s” hərfi ilə başlayır...*



**Bir az dərinə gedib, bu sözlərin aktrisanın taleyi və yaradıcılığı ilə bağlılığını çözməyə cəhd edirəm...**


Ulu öndər Heydər Əliyevlə

Amaliya xanım səhnəyə böyük eşq, tükənməz sevgi ilə gəldiyinə və həmişə bu eşqə, bu sevgiyə sadiq qaldığına görə milyonların sevimlisidir.

Amaliya xanım səadətini səhnədə tapıb və bu səhnədən minlərlə, on minlərlə, yüz minlərlə tamaşaçısına ecazkar səadət bəxş edir.

Amaliya xanımın səhnə ilə ülfətindəki səmimiyyət onun oynadığı bütün səhnə və ekran obrazlarının ruhuna hopub.

Amaliya xanımın sərvəti Tanrının ona bəxş etdiyi tükənməz istedaddır və nə yaxşı ki, bu sərvətdən tamaşaçılara da pay düşür.

Amaliya xanım hər səhnəyə çıxanda onun üçün bu müqəddəs məkana “salam” verib qədəm basır. Elə buna görə də səhnə onun ayaqları altında həmişə payəndaz olur.

Amaliya xanımı yaxından tanıyanlar, onunla ünsiyyətdə olanlar yaxşı bilirlər ki, sənətkarın söhbətlərinin əvvəli də, axırı da sənət və sənətə ehtiramdır.

Amaliya xanımın qəhrəman sevgili obrazlarında su saflığı, su pıçıltısının həzinliyi var.

Amaliya xanım hər yeni obrazı ilə pərəstişkarlarına əvəzsiz, təzə sənət sovqatı bəxş edir.

Amaliya xanım müqəddəs sənət məbədində öz sənət hücrəsi olan bənzərsiz sənətkardır.

Görünür, bu sehrli sözlərlə ifadə olunan digər mətləblər mənim təhtəlşüur düşüncə qatımdan boy verir. Bəlkə də həmin duyğu Amaliya Pənahovanın səhnə yaradıcılığının bu günə qədər açılmayan səhnə sirlərinin dərkedilməz, lakin canlı olduğunun təsirli təzahürüdür?!


“Babək” filmində Rasim Balayevlə

## Bəlkə də...

Amma, vallah və billah bu, “bəlkə” müəmmasından daha çox, reallıq həqiqətindən sirlənən duyğudur...

Amaliya Pənahova səhnəmizin parlaq yaradıcı fenomenidir!

Amaliya Pənahova sənət düşüncəmizin cazibədar və ecazkar paradoksudur!

Amaliya Pənahova Azərbaycan Respublikasının Xalq artistidir!

Amaliya Pənahova Bakı Bələdiyyə Teatrının bədii rəhbəri və direktorudur!

Amaliya Pənahova sənətşünaslıq doktorudur.

Amaliya Əliş qızı Pənahova millət vəkili olub, dövlət mükafatlarına layiq görülüb...

Bax, bütün bunları təsdiqləyə-təsdiqləyə, bütün bunların əzəmət çəkisini etiraf edə-edə, Amaliya Pənahova barədə yazmağa cəsarət göstərmişəm.

Amaliya Pənahova geniş mənada aktyorluğa, səhnəyə, sənətə, teatr sənətinə, konkret şəkildə Akademik Milli Dram Teatrına nəhəng


“Təhminə və Zaur” tamaşasında Fuad Poladovla

və uğurlu addımlarla daxil olub. Daxil olub və elə ilk addımlarından da coşqun istedadı, yorulmaq bilməyən fədakarlığı, bəhrəli zəhmətkeşliyi ilə özünə fərdi poetika göstəriciləri, fərdi estetik səciyyələri, fərdi sənətkarlıq prinsipləri olan yaradıcılıq cığırı açıb. Bu gün milli teatr tariximizin geniş müstəvisində bu cığırın öz hüsn-təravəti var.

Azərbaycan milli teatrında lirik-psixoloji üslublu aktyor məktəbinin yaradıcılarından biri də Amaliya xanımdır. Gənc aktrisanın yaradıcılığının ilk ilində şövq və heyranlıqla ifa etdiyi Nargilə ("Sən həmişə mənimləsən"), Nərmin ("Unuda bilmirəm"), Reyhan ("Yağışdan sonra"), Şahnaz ("Mahnı dağlarda qaldı") obrazları lirik-psixoloji üslubun özülünü təşkil edən fundamental yaradıcılıq qələbələridir. İllər keçdikcə aktrisanın bu aktyor məktəbi daxilindəki üslubu romantik və realist aktyorluq məktəblərinin estetik səciyyələrini də mənimsəyərək daha da təkmilləşib, formalaşıb.



"Mən mahnı qoşuram" filmi



"Nişanlı qız" tamaşasında Siyavuş Aslanla

İlk növbədə lirik-psixoloji üslubda fəaliyyət göstərib. Bununla belə, romantik faciə ("Hamlet" də Ofeliya, "Tomris"də Tomris, "Məkr və məhəbbət"də Luiza), dramatik-psixoloji ("Gecə döyülən qapılar"da Mehri ana), qroteskli satirik ("Yalan"da Şəlalə) və yumorlu ("Nişanlı qız"da Zərifə) rolların ifasında da uğurlar qazanıb. Qazanmaqla da lirik-psixoloji teatr poetikasına ifadə zənginliyi, məna genişliyi, hüsn-təravət, poetik lətafət gətirib. Onun yaradıcılığındakı yumor keyfiyyətləri ürəkaçan, yapışıqlı, səmimi və zərifdir. Aktrisa bu yumoru yeri gələndə kövrək ruhlu lirik-psixoloji və dramatik səciyyəli mürəkkəb xarakterlərə bacarıqla aşılaya bilir. Eyni zamanda qroteskli, satirik səciyyəli və məsxərə çalarlı yumoristik personajları da cazibəli coşqunluqla ifa edərək, onlara romantik ruh, psixoloji ahəng və zərif lirizm verə bilir.

Zərif və coşqun emosiyaya malik aktrisadır. Dramatik səhnələrdə temperamentli və psixoloji cəhətdən zəngin sənətkar təsiri bağışlayır. Daxili ehtirasını kükrəyib-daşan səhnə temperamenti ilə ahəngdar vəhdətdə verməkdə çox səriştəlidir. Bu baxımdan onun Natavan ("Xurşidbanu Natavan") obrazını xatırlamaq kifayətdir.

Yaradıcılığında güclü və sirayətedici səhnə sərbəstliyi var. Tamaşanın janrından, əsərin mövzu-problematikasından asılı olmayaraq, improvizələrdə həmişə bacarıqlı və mənalı görünür. Yaradıcılığının bu parlaq keyfiyyəti aktrisanın ifa etdiyi səhnə surətlərinə sanballı bədiilik, təbii reallıq və ünsiyyət səmimiliyi gətirir.

Səhnədə baxımlı və cazibəlidir, ürəyəyatımlı və könüloxşayandır, məlahətli və səmimidir. Aktrisa Akademik teatrda, eləcə də Bələdiyyə teatrında truppadakı aktyorların yaş müxtəlifliyindən, sənətkarlıq səciyyələrinin fərqlərindən asılı olmayaraq, demək olar ki, bütün sənətkarlarla səhnəyə çıxıb. Bu müxtəlifliyin qaynar yaradıcılıq prosesində yöndəşləri ilə psixoloji fikir və dramatik hərəkət ünsiyyəti yaratmağı məharətlə, cazibədarlıqla bacarır. Bütün məqamlarda yöndəşlarına diqqətcildir.

Səsi və səhnə danışığı sənət həmkarlarının yaradıcılıq xüsusiyyətlərindən fərqlidir, bənzərsizdir. Obrazın xarakterinin psixoloji mahiyyətlərinə əsaslanaraq, onun ictimai və ya sosial mənsubiyyətini həssaslıqla nəzərə alaraq, səsinin psixoloji dəyişmələrini oynadığı rolun estetik mahiyyəti ilə bacarıqla əlaqələndirir.

Heç vaxt müğənnilik iddiası olmayıb. Lakin qulağa həzinlik və dinclik gətirən şirin və məlahətli səsi var, həssas musiqi duyumuna malikdir. O, tamaşalarda mahnı oxumağı cəsarətlə öhdəsinə götürən ilkin və nadir aktrisalardandır.

Amaliya Pənahovanın yaradıcılığının ikinci mərhələsi (gənclik dövründən yetkinliyə keçid mərhələsi) mürəkkəb rolların çoxluğu ilə diqqəti cəlb edir. "Şeyx Xiyabani" tamaşasındakı xanım Mahnur, "Qanlı Nigar" satirik komediyasındakı Nigar xaraktercə ziddiyyətli, sərt, həyat prinsiplərində müəyyən cəmiyyət və əxlaq qanunlarının ziddinə gedən mürəkkəb surətlərdir. Aktrisa həmin rollarda da məhəbbətlə baxılır, rəğbətlə qarşılanır, səmimiyyətlə sevilir. Çünki o, ilk növbədə real, canlı, həyatın ciddiyyətlərini ehtiva edən bitkin insan xarakteri yaradır.

İstedadı heç vaxt müəmmalı, hansısa rejissor üçün "anlaşılmaz" olmayıb. Böyük səhnəyə ilk addımından, yəni 19 yaşından aktrisanın istedadı parlaq ziya saçaraq özünü qətiyyətlə, cəsarətlə, coşqun enerji mütəhərrikliyi ilə təsdiqləyib. Bu təsdiqin geniş miqyaslı panoramasında bəsit çərçivəyə sığmayan əzəmət olub. İllər keçdikcə isə sənətkar bu istedadın rəngarəngliyinə möhtəşəm əlvanlıq, daha ehtiraslı cazibədarlıq, dərinlik və kamillik aşılayıb. Çılğın və sadəlövh ehtirasla, məsum bakirəliklə sevən obrazların mahir ifaçısı olan aktrisa kamillik dövründə Mehri ana ("Gecə döyülən qapılar"), Medeya ("Medeya") kimi fəlsəfi-psixoloji xarakterlər yaratmaqda formalaşıb.



Amaliya Pənahova tamaşaçı alqışından, tamaşaçı məhəbbətindən, tamaşaçı sevgisindən, sənət populyarlığından heç vaxt korluq çəkməyib. Yaradıcılığının ilk illərində gənclərin, kamillik dövründə düşünən çağdaşlarının arzu və istəklərini, qayğı və problemlərini, həyat burulğanlarında keçirdikləri psixoloji tərəddüdlərini və qətiyyətli qənaətlərini öz səhnə obrazlarının timsalında zəngin axtarışlar potensiyası ilə tərənnüm edib. Aktrisa populyarlıq zirvəsindən heç vaxt enməyib.

Amaliya xanımın təbəssümlü və həzin baxışları var. Həmin baxışlar tamaşaçını ovsun cazibəsinə sala, onu ifa etdiyi obraz barədə düşünməyə vadar edə bilir.

Kəskin təzadlı, mürəkkəb konfliktli situasiyalarda obrazın psixoloji dəyişmələrini ifadəliliklə canlandırmaqda təcrübəlidir. O, belə yaradıcılıq məqamlarında (məsələn, "Pəri-cadu"da Pəri rolunda) dramatik psixologizmi sosial-ictimai tragediya elementləri ilə ahəngdar vəhdətdə birləşdirməyin peşəkarlıq vərdişlərinə ustalıqla yiyələnib.

Tamaşanın xarakterindən, kompozisiyanın rejissor qurumundan, hadisələrin psixoloji gərdişindən asılı olaraq, Amaliya Pənahovanın səhnəyə ilk gəliş mizanı gur işıq altında da verilib, yarıqaranlıqda da, hətta zülmətin vahiməsində də. Birmənalı şəkildə deyim ki, projektor işığının verilməsi öz yerində, amma lap qaranlıqda da aktrisa səhnəyə qədəm basdığı andan gözlərinin işığı və çöhrəsinin ılıq təbəssümü ildırım kimi zülmətdən sivrilib çıxır. Çıxır və şığıyıb səhnəni tutur, oradan da kəpənək kimi qanadlanıb salondakıların qəlbinə qonur, ruhlara hopur.



"Tomris" tamaşası



"Medeya" tamaşası

Qılıqlı, səmimi aktrisadır. Bu, hamıya bəllidir. Bu da danılmaz həqiqətdir ki, Amaliya xanım səhnəyə ilk çıxış mizanından salonda səmimi, hərarətli iqlim, canlanma yaradır. Çox asanlıqla ürəklərə yol tapır, özünü sevdirir, ifa etdiyi obrazı diqqət mərkəzində saxlaya bilir.

Amaliya Pənahovanın bütün rollarının şəkillərini yan-yana qoyub baxanda qəribə bir bənzərliyin şahidi olursan. Necə olur-olsun, hər bir teatrsevər Amaliya xanımı o dəqiqə tanıyır. Maraqlı olanı həm də budur ki, aktrisa səhnədə heç vaxt buna təkidlə cəhd göstərməyib, lakin tamaşaçı hər hansı tamaşada onu asanlıqla tanıyır. Bununla belə, aktrisanın yaradıcılığına yaxşı bələd olan hər bir kəs onun ifa etdiyi sifətcə bənzər obrazlarda heç vaxt təkrarçılıq və xarakter eyniyyəti tapa bilməz. Əslində, aktrisanın oyununda həmin obrazları xarakterin təqdimi baxımından dəyişik salmaq heç mümkün də deyil. Çünki sənətkar onların hərəsini fərdi cizgilərlə cilalayıb. Bax, bu bənzərsizlik məhz Amaliya Pənahova istedadının tükənməzliyi, ifadə vasitələrinin rəng əlvanlığı ilə bağlıdır.

Daxilən enerjili, qəlbən hərarətli, ruhən coşqun, ritmcə dinamik, davranışca çevik aktrisadır. Bu enerji, bu hərarət, bu dinamika, bu coşqunluq, bu çeviklik onun hərəkət plastikasında da açıq-aşkar və parlaq təcəssüm tapır. Aktrisa daxili ritmini coşqunluğa çevirməkdə ustaddır.

Musiqi dili ilə desəm, yarımton rol oynamağı xoşlamır. Obraz dramatik-psixoloji səciyyəlidirsə, aktrisa tamaşaçını həmin gərginlikdə saxlayır, həyəcanlandırır. Tamaşaçı personajın taleyini özünə



doğmalaşdırır. Rol tragediya surətidirsə aktrisa tamaşaçıların ən həssas duyğularını tərpədib gərginliyə çəkməkdə fərasətlidir, səriştəlidir, təcrübəlidir. Surət lirik çalarlıdırsa, Amaliya xanım tamaşaçıların ruhuna emosional tumar çəkir. Yox, əgər oynanılan xarakter komikdirsə, deməli, aktrisa tamaşaçılara mütləq səmimi gülüş bəxş edəcək.

Yaradıcılığının ilk illərindən xaraktercə mürəkkəb, çoxşaxəli rolları oynamağa üstünlük verib. Xoşlayır ki, ifa etdiyi obrazın qəmi və həm də sevinci, fərəhli uğurları və həm də sarsıntıları, qətiyyəti və həm də tərəddüdü olsun. Aktrisa belə mürəkkəb duyğulu personaja real, təbii və psixoloji səhnə təfsiri verməkdən özü də mənəvi ləzzət duyur, ruhi dinclik tapır.

> Sirayətedici səhnə məlahətinə malik aktrisadır. Sənətkarın yaradıcılığında möhkəmcə təcəssüm tapmış bu məlahəti, bu məhrəmliyi hər təzə rolda yenidən təqdim etməsinə heç vaxt ehtiyac hiss olunmayıb. Çünki bu keyfiyyət Amaliya xanımın bir insan kimi mənəvi sərvətidir və külçə halında olan bu sərvət roldan-rola daha da pardaqlanır.

Bütün rollarında aktrisanın daxilindən gəlib obraza sirayət edən fəal və aramsız mənəvi coşqunluq var. Bu coşqunluq dinamikdir, canlıdır, həyatidir. Üstəlik də aktrisa həmin cəhəti hər dəfə obrazın xarakterinə uyğun tərzdə yeni çalarla, yeni məzmun və formada təqdim edə bilir.

Xaraktercə, hətta baxışlarına, ləyaqət və qüruruna görə müxtəlif bədii surətlərə səhnə həyatı verib. Onların məkrlisi də olub, məhəbbətlisi də. Sadəlövhü də olub, ötkəm və sərti də. Lakin aktrisa müxtəlif şəkildə bütün obrazlarını səhnədə həyat eşqli, yaşamağa şövqlə can atan insan kimi realizə edib. Oynadığı obrazlar həyatın mənasını fərqli psixoloji ölçülərlə qiymətləndirsələr də, onun dəyərini uca tuturlar.

"Tofiq Kazımov teatrı"nın aktrisası olduğuna görə Amaliya xanım pauzalı səhnələrdə oynamaq vərdişinə məharətlə yiyələnib. Xüsusilə "Sən həmişə mənimləsən", "Unuda bilmirəm" tamaşalarının finalında, "Yağışdan sonra", "Pəri-cadu", "Cehizsiz qız", "Medeya" tamaşalarının əsas hadisələrində obrazın psixoloji dönüş səhnələrində aktrisa pauzaları məftunluqla oynayıb.

Bir qayda olaraq, məşq prosesində oynayacağı obrazın daxili dünyasına nüfuz etməkdən başlayır. Çalışır ki, obrazın həyat ritmini müəyyənləşdirən psixoloji motivləri tapsın və onun mahiyyətini mənimsəyib dərk etsin. Bu sənətkarlıq tələblərini mükəmməl yaradıcılıqla mənimsəyib və hər təzə rolunda onu tamaşaçılara gözlənilməz rakurslardan təqdim edir.

Ona tapşırılan rolu necə oynayacağı sanki əvvəlcədən ürəyinə damır və bu duyğu aktrisanın istedadının özünəməxsusluğundan biridir. Səhnəyə çıxan gündən valehedici və təbii müzəffərlik, yenilməzlik aktrisanın tale qismətidir. Bu müzəffərliyin, bu yenilməzliyin mayasında Amaliya xanımın fitri və nadir istedadı, həddindən artıq tez mənimsədiyi peşəkarlığı, öz sənətkarlığına inamı və səmimiyyəti durur.

İfa etdiyi psixoloji, lirik, dramatik, hətta yeri gələndə tragik xarakterli səhnə personajlarının zaman duyumları emosionaldır, idraklıdır. Onun məhəbbət obrazlarının hamısı qəmli və ya sevincli, qüssəli və ya kövrək sevgisini ruhu, həyatın reallığı, zamanın daimi axını ilə təmasda davranan, düşünən, şıltaqlıq edən, səhvlərin acısını dadan, daxilən sarsılan, mənəvi zərbələrə məruz qalan, lakin heç vaxt sabaha və insanlığa inamlarını itirməyən surətlərdir.

Tamaşalarda parlaq və ifadəli, aydın və baxımlı oyun tərzinə üstünlük verir. Verir və daha çox belə ifa estetikasında möhtəşəm, hətta gözlənilməz nailiyyətlər qazanır. Bu yaradıcılıq cəhdində aktrisa qeyri-adi temperamentini inamlı peşəkarlıqla, məzmun-forma vəhdətinin ahəngdarlığı ilə mətanətlə uzlaşdırır.

Kinoda da səhnə sənətinin ifadə vasitələrinin səlisliyinə, aydınlığına, çevikliyinə sadiq qalır. O, teatrda mənimsədiyi və mənimsəyib formalaşdırdığı mizan-səhnələrin dəqiqliyini qorumaq, plastik cizgilərdən istifadə, fəza boşluğunda sərbəst, müəyyən ritmlə davranmaq, yöndaşla ünsiyyət qurmaq kimi yaradıcılıq vərdişlərinin üstündə kövrək bir sərtliklə əsir.

Amaliya Pənahovanın ömür ağacı bərəkətli istedad torpağında rişə tapıb, möhtəşəm yaradıcılıq zəminində ucalıb, qol-budaq olub.

Sənətkarın ömür ağacı bu gün də bol bəhrəsini verməkdədir...

Ömrünü teatr sənətinə həsr edən Amaliya Pənahovanın tərcümeyi-halı – ömür tarixçəsi, Azərbaycan milli teatrının XX və XXI əsr tarixinin konkret, sənədli təzahürüdür...

İlham Rəhimli,
Azərbaycanın Əməkdar incəsənət xadimi,
sənətşünaslıq doktoru, professor